# CIRCULAR AND SPHERICAL SYMBOLISM IN WEDDING AND FUNERAL CEREMONIES

**Yasin Khalilov**[1]

**UDC:** 392.5+393(479.24):003.6:7.05
**LBC:** 63.5(5Aze):85.12:30.18
**HoS:** 155
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.37-56

**Keywords:**

Circular symbolism, Spherical forms, Wedding ceremonies, Funeral rituals, Rites of passage, Azerbaijani culture, Universal symbols, Ritual anthropology

**Subject area:**

Multidisciplinary Researchs

**Research field:**

Cultural Studies

## ABSTRACT

This study explores the universal symbolic functions of circular and spherical forms in wedding and funeral ceremonies across world cultures using a multidisciplinary approach. The article analyzes how these forms are structured during key transitional stages of human life, based on van Gennep's rites of passage, Turner's liminality theory, and Jung's archetypes theory. In wedding ceremonies, circular dances, table arrangements, rings, and other symbols embody unity, eternity, and harmony. Azerbaijani traditions such as fastening a silver belt and red ribbon are of particular interest. In funeral rituals, circular forms express the transformation of the soul, continuity, and the idea of eternity. Prayer circles, candle rings, and motifs on tombstones carry similar symbolic meanings across different cultures.

The research demonstrates that these forms are not merely aesthetic elements but universal symbols with social, psychological, and spiritual functions. In the modern era, traditional symbolism continues to persist in new forms—in virtual spaces, digital platforms, and contemporary memorial designs. Circular and spherical forms serve as visual expressions of human connection with the cosmos, earth, and the divine. The study's findings highlight the profound psychological and ontological significance of these forms, transcending not only cultural boundaries but also time. Future research directions include digital anthropology, neuroanthropology, and ecological anthropology.

[1] Doctor of Philosophy in Technology, Associate Professor,
Department of Design, Faculty of Architecture and Construction, Baku Engineering University; Baku, Azerbaijan
E-mail: yxalilov@beu.edu.az
https://orcid.org/0000-0001-6251-7556

**To cite this article:** Khalilov, Y. [2026]. Cırcular and Spherıcal Symbolısm ın Weddıng and Funeral Ceremonıes. *History of Science journal*, *7*(2), pp.37-56.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.37-56

***Article history:***
*Received: 17.01.2026*
*Revised: 18.02.2026*
*Accepted: 01.06.2026*
*Published: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# TOY VƏ YAS MƏRASİMLƏRİNDƏ DAİRƏVİ VƏ KÜRƏVİ SİMVOLİKA

**Yasin Xəlilov**[1]

**UOT:** 392.5+393(479.24):003.6:7.05
**KBT:** 63.5(5Aze):85.12:30.18
**HoS:** 155
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.37-56

**Açar sözlər:**

Dairəvi simvolika, Kürəvi formalar, Toy mərasimləri, Yas ritualları, Keçid ritualları, Azərbaycan mədəniyyəti, Universal simvollar, Ritual antropologiya

**Sahə:**

Multidisiplinar Tədqiqatlar

**Tədqiqat sahəsi:**

Mədəni Tədqiqatlar

## ANNOTASİYA

Bu tədqiqat dünya xalqlarının toy və yas mərasimlərindəki dairəvi və kürəvi formaların universal simvolik funksiyalarını multidissiplinar yanaşmarla araşdırır. Məqalə van Gennepin keçid ritualları, Turnerin liminallıq və Jungun arxetiplər nəzəriyyələri əsasında bu formaların insan həyatının əsas keçid mərhələlərində necə strukturlaşdığını təhlil edir. Toy mərasimlərində dairəvi rəqslər, süfrə təşkili, üzük və digər simvollar birlik, əbədilik və harmoniyanı təcəssüm etdirir. Azərbaycan mədəniyyətində gümüş kəmər bağlama, qırmızı lent kimi ənənələr xüsusi diqqət çəkir. Yas mərasimlərində isə dairəvi formalar ruhun transformasiyasını, davamlılıq və əbədilik ideyasını ifadə edir. Zikr halqaları, şam dairələri və qəbir daşlarındakı motivlər müxtəlif mədəniyyətlərdə oxşar simvolik mənalar daşıyır.

Tədqiqat göstərir ki, bu formalar təkcə estetik element deyil, həm də sosial, psixoloji və mənəvi funksiyaları olan universal simvollardır. Müasir dövrdə ənənəvi simvolizm virtual məkanlarda, rəqəmsal platformalarda və müasir memorial dizaynlarda yeni formalarda yaşamaqda davam edir. Dairə və kürə formaları insanın kosmosla, torpaqla və ilahi ilə olan münasibətinin vizual ifadəsi kimi çıxış edir. Tədqiqatın nəticələri bu formaların təkcə mədəni sərhədləri deyil, zamanı da aşan dərin psixoloji və ontoloji əhəmiyyətini üzə çıxarır. Gələcək tədqiqatlar üçün rəqəmsal antropologiya, neyroantropologiya və ekoloji antropologiya istiqamətləri təklif olunur.

[1] Texnika üzrə fəlsəfə doktoru, Dosent,
Dizayn kafedrası, Memarlıq və İnşaat fakultəsi, Bakı Mühəndislik Universiteti; Bakı, Azərbaycan
E-mail: yxalilov@beu.edu.az
https://orcid.org/0000-0001-6251-7556
**Məqaləyə istinad:** Xəlilov, Y. [2026]. Toy və Yas Mərasimlərində Dairəvi və Kürəvi Simvolika. *History of Science jurnalı*, *7*(2), səh.37-56.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.37-56

***Məqalənin tarixçəsi:***
*Daxil olub: 17.01.2026*
*Yenidən baxılıb: 18.02.2026*
*Təsdiqlənib: 01.06.2026*
*Dərc olunub: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# КРУГОВАЯ И СФЕРИЧЕСКАЯ СИМВОЛИКА В СВАДЕБНЫХ И ПОГРЕБАЛЬНЫХ ОБРЯДАХ

**Ясин Халилов**[1]

**УДК:** 392.5+393(479.24):003.6:7.05
**ББК:** 63.5(5Азе):85.12:30.18
**HoS:** 155
**doi:** 10.33864/2790-0037.2026.v7.i2.37-46

**Ключевые слова:**

Круговая символика, Сферические формы, Свадебные обряды, Погребальные ритуалы, Ритуалы перехода, Азербайджанская культура, Универсальные символы, Ритуальная антропология

**Область исследования:**

Междисциплинарные исследования

**Научная область:**

Культурология

## АННОТАЦИЯ

Данное исследование изучает универсальные символические функции круглых и сферических форм в свадебных и погребальных обрядах народов мира с помощью междисциплинарного подхода. Статья анализирует, как эти формы структурируются на основных переходных этапах человеческой жизни, основываясь на теории ритуалов перехода ван Геннепа, концепции лиминальности Тёрнера и теории архетипов Юнга. В свадебных обрядах круговые танцы, организация стола, кольца и другие символы воплощают единство, вечность и гармонию. В азербайджанской культуре особое внимание привлекают традиции подвязывания серебряного пояса и красной ленты. В погребальных ритуалах круговые формы выражают трансформацию души, идеи непрерывности и вечности. Зикр-халы, круги из свечей и мотивы на надгробиях несут сходные символические значения в разных культурах.

Исследование показывает, что эти формы являются не только эстетическими элементами, но и универсальными символами, выполняющими социальные, психологические и духовные функции. В современную эпоху традиционный символизм продолжает существовать в новых формах - в виртуальных пространствах, цифровых платформах и современных мемориальных designs. Круглые и сферические формы служат визуальным выражением связи человека с космосом, землей и божественным. Результаты исследования подчеркивают глубокое психологическое и онтологическое значение этих форм, преодолевающих не только культурные границы, но и время. Для будущих исследований предлагаются направления цифровой антропологии, нейроантропологии и экологической антропологии.

[1] Доктор философии по техническим наукам, доцент,
Кафедра дизайна архитектурно-строительного факультета Бакинского инженерного университета; Баку, Азербайджан
E-mail: yxalilov@beu.edu.az
https://orcid.org/0000-0001-6251-7556
**Цитировать статью:** Халилов, Я. [2026]. Круговая и Сферическая Символика в Свадебных и Погребальных Обрядах Войны. *Журнал History of Science, 7*(2), c.37-56.
https://doi.org/10.33864/2790-0037.2026.v7.i2.37-56

***История статьи:***
*Поступила: 17.01.2026*
*Переработана: 18.02.2026*
*Принята: 01.06.2026*
*Опубликована: 15.06.2026*

**Copyright: © 2026 by AcademyGate Publishing.** This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

İnsan yaranışdan bəri yaşamın iki əzəli həqiqəti – sevinc və hüzn, doğum və ölüm, toy və yas qarşısında özünə suallar verir, bu sirli keçidləri anlamlandırmağa çalışır. Və çox zaman bu cavablar formaya bürünür: əllərlə çəkilən bir dairədə, səslə fırlanan bir halqada, mərasimin ortasında yanıb sönən bir şamın nurunda. Bütün xalqlarda toy və yas ritualları zamanın axışı ilə yanaşı, məkanda da bir mərkəzə doğru yönələn, dövr edən, tamamlanan və yenidən başlayan dairəvi strukturlar doğur.

Bu fenomen təkcə təsadüfi deyil – o, insan təbiətinin dərin qatlarında kök salmış arxetipik strukturların təzahürüdür. Carl Jung-un kollektiv şüuraltı nəzəriyyəsinə görə, dairə və mandala formaları bütün mədəniyyətlərdə özlüyün (Self) və psixoloji bütövlüyün simvolu kimi meydana çıxır [Jung, 1959]. Bu universal simvolizm, Émile Durkheim-ın sosial həmrəylik nəzəriyyəsi çərçivəsində də izah oluna bilər – rituallar cəmiyyətin üzvlərini birləşdirən və kollektiv şüuru möhkəmləndirən mexanizmlərdir [Durkheim, 2008].

Arnold van Gennep-in keçid ritualları (rites of passage) nəzəriyyəsi bu məsələyə struktural yanaşma təqdim edir [van Gennep, 1961]. Onun üç mərhələli modeli – ayrılma (separation), keçid (transition/liminality), və birləşmə (incorporation) – toy və yas mərasimlərinin universal strukturunu açıqlayır. Victor Turner bu nəzəriyyəni inkişaf etdirərək liminallıq (liminality) və kommunitas (communitas) anlayışlarını təqdim etmişdir [Turner, 1969]. Turnerə görə, ritual prosesində iştirakçılar adi sosial strukturdan çıxaraq xüsusi bir "ara vəziyyət"ə daxil olurlar ki, burada yeni sosial əlaqələr və kimlik formalaşır.

Kürə və dairə – geometriyanın ən qədim və ən tam formaları olaraq – təkcə riyazi təfəkkürün deyil, bəşəriyyətin kollektiv yaddaşının da mərkəzində dayanır. Platonun "Timaeus" dialoqunda kainatın kürəvi forması ilahi mükəmməlliyin təcəssümü kimi təsvir olunur [Plato, 2008]. Aristotel də göy cisimlərinin dairəvi hərəkətini ən mükəmməl hərəkət növü hesab edirdi [Aristotle, 1999]. Bu fəlsəfi ənənə İslam hikmətində də davam etmişdir – İbn Sina, Sührəvərdi və İbn Ərəbi kimi mütəfəkkirlər dairəvi formaları İlahi nurun təcəssümü və ruhun kamillik yolu kimi şərh etmişlər [Nasr, 1993].

Müasir antropologiyada Clifford Geertzin simvolik antropologiya yanaşması bu formaların mədəni məna yaratma prosesindəki rolunu vurğulayır [Geertz, 1973]. Geertzə görə, mədəniyyət "məna şəbəkələri"ndən ibarətdir və simvollar bu şəbəkələrin əsas elementləridir. Dairəvi və kürəvi formalar bu kontekstdə universal "məna daşıyıcıları" kimi çıxış edir.

Qədim şaman barabanının səthi, sufilərin sema mərasimi, xristianların halqa ibadəti, hinduist mandalası, buddist çarxı – hamısı dairənin müqəddəsliyinə dair müxtəlif coğrafiyaların eyni instinktiv baxışını təcəssüm etdirir. İnsan təxəyyülü kainatın özünü belə bir kürə kimi təsəvvür edib: Göy qübbəsi, Yer kürəsi, ruhun halə şəklində işıq yayması, ölüm sonrası səyahətin sonsuz dövranı… Bütün bu motivlərdə forma, zaman və məna iç-içə keçir.

### *1.1.Tədqiqatın nəzəri çərçivəsi*

Bu tədqiqat multidissiplinar yanaşma əsasında qurulmuşdur və aşağıdakı nəzəri çərçivələri birləşdirir:

Ritual nəzəriyyəsi: Van Gennep və Turnerin keçid ritualları nəzəriyyəsi əsasında toy və yas mərasimlərinin struktural təhlili aparılır [van Gennep, 1961; Turner, 1969]. Catherine Bellin ritual nəzəriyyəsi və praktikası yanaşması da nəzərə alınır [Bell, 2009].

Simvolik Antropologiya: Geertzin "sıx təsvir" (thick description) metodologiyası və simvolların mədəni təfsiri yanaşması tətbiq edilir [Geertz, 1973]. Mary Douglasın təmizlik və çirkinlik anlayışları da ritual simvolizmin anlaşılmasında istifadə olunur [Douglas, 1966].

Psixoanalitik Yanaşma: Jung-un kollektiv şüuraltı, arxetiplər və mandala nəzəriyyələri forma simvolizminin psixoloji əsaslarını açıqlamaq üçün istifadə edilir [Jung, 1959].

Fenomenoloji Yanaşma: Maurice Merleau-Ponty-nin bədən fenomenologiyası və Gaston Bachelardın məkan poetikası ritual məkanın və formanın təcrübi anlaşılmasında tətbiq edilir [Bachelard, 1994].

Toy mərasimi həyatın başlanğıcına, yeni bir dövrənin doğumuna işarədir. Bu mərasimlərdə dairəvi rəqslər, xonçaların simmetrik düzülüşü, üzük kimi simvollar sevginin əbədiliyini, ailənin tamamlanmasını, birliyin bütövlüyünü bildirir. Müasir tədqiqatlar göstərir ki, evlilik ritualları universal funksiyalar daşıyır: sosial birliyin möhkəmləndirilməsi, yeni sosial statusun elan edilməsi və mədəni dəyərlərin ötürülməsi [Britannica, 2025].

Azərbaycan mədəniyyətində gəlinin belinə qırmızı lent və ya gümüş kəmər bağlanması ənənəsi xüsusi diqqətə layiqdir [Guliyeva, 2023]. Bu ritual həm gəlinin təmizliyinin simvolu, həm də yeni ailə dairəsinə daxil olmanın işarəsidir. Gümüş metalının özü də müxtəlif mədəniyyətlərdə təmizlik, antibakterial təsir, qorunma və ruhani enerji simvolu kimi qəbul edilir [Gaayu Gems].

Yas mərasimi isə başqa bir dövrənin – fiziki yoxluqdan mənəvi xatirəyə keçidin – başlanğıcıdır. Qara çələng, dairəvi yığın, qəbrin başında dövrə vurmaq – bunlar həm kollektiv hüznün, həm də ruhun dövri hərəkətinə inamın ifadəsidir. Robert Hertzin ikili dəfn nəzəriyyəsi bu proseslərin sosial funksiyasını açıqlayır [Hertz, 1960]. Ona görə, yas ritualları həm ölənin ruhunun transformasiyasını, həm də canlıların sosial nizamının bərpasını təmin edir.

Mədəniyyətlərdə ölüm heç də yoxluq deyil – əksinə, başqa bir haləyə daxil olmaq, ruhun "kürəvi" bir səyahətə çıxması kimi dərk olunur. Yas rituallarında kürəvi və dairəvi formalar bu keçidi yüngülləşdirən, kollektiv yaddaşı bir nöqtəyə toplayan mənəvi alətlərə çevrilir.

### *1.2.Tədqiqatın məqsəd və əhəmiyyəti*

Bu tədqiqatın əsas məqsədi dünya xalqlarının toy və yas mərasimlərində rast gəlinən kürəvi və dairəvi formalı ritualların, əşyaların, davranışların və simvolların mənşəyini, funksiyasını və mənəvi dəyərini müasir elmi yanaşmalar çərçivəsində araşdırmaqdır. Mərasimlərdə dairə və kürə formalarının yalnız vizual element olaraq deyil, həm də ontoloji, sosial və estetik daşıyıcı kimi çıxış etdiyini göstərmək əsas hədəfdir.

Tədqiqatın elmi əhəmiyyəti aşağıdakı aspektlərdə cəmlənir:

*Antropoloji əhəmiyyət:* Formanın rituallarda oynadığı rol, insan cəmiyyətlərində dövri simvolların keçid mərhələləri ilə əlaqəsinin sistemli təhlili. Bu, Maurice Bloch-un ritual və ölüm nəzəriyyəsi [Bloch, 1992] və Pascal Boyerin ritual ötürülməsi nəzəriyyəsi [Boyer, 2001] kontekstində xüsusi əhəmiyyət kəsb edir.

*Koqnitiv əhəmiyyət:* Dan Sperberin simbolik düşüncə nəzəriyyəsi [Sperber, 1975] və Scott Atranın koqnitiv antropologiya yanaşması [Atran, 2002] çərçivəsində dairəvi formaların insan şüurunda necə emal edildiyi və yadda saxlanıldığının araşdırılması.

*Sosial əhəmiyyət:* Randall Collinsin ritual qarşılıqlı təsir zəncirləri nəzəriyyəsi [Collins, 2004] əsasında dairəvi ritualların sosial həmrəylik yaratmadakı rolunun təhlili.

*Estetik əhəmiyyət:* Toy və yas rituallarında formanın ritm, harmoniya və simmetriya ilə olan əlaqəsi. Rudolf Arnheimın vizual düşüncə nəzəriyyəsi [Arnheim, 1974] və Ernst Cassirerin simvolik formalar fəlsəfəsi [Cassirer, 1955] bu kontekstdə əsas nəzəri çərçivələrdir.

*Müasir kontekst:* Keçmişin forma yaddaşının çağdaş dizayn, performans sənətləri və mədəni simvolizmə təsiri. Digital dövrdə ritualların transformasiyası və virtual məkanlarda forma simvolizminin yeni təzahürləri.

Beləliklə, bu araşdırma forma–funksiya–fikir üçlüyünün qovuşduğu bir sahədə yeni elmi və bədii perspektivlər açır və mədəniyyətlərarası dialoq üçün əsas yaradır.

## 2.Toy mərasimlərində dairəvi simvolika

Toy mərasimi insan həyatının ən mühüm keçid anlarından biridir. Bu mərasim təkcə iki fərdin birliyini deyil, həm də iki ailənin, iki nəsilin, bəzən iki tayfanın birləşməsini ifadə edir. Arnold van Gennepin klassik nəzəriyyəsinə görə, evlilik ritualları üç mərhələli struktura malikdir: ayrılma (gəlinin ata evindən ayrılması), keçid (liminal vəziyyət), və birləşmə (yeni sosial statusun qəbulu) [van Gennep, 1961]. Victor Turner bu nəzəriyyəni inkişaf etdirərək göstərmişdir ki, liminal mərhələdə iştirakçılar adi sosial iyerarxiyadan azad olaraq kommunitas – bərabərlik və birlik hissini yaşayırlar [Turner, 1969].

Toy yalnız sosial bir akt deyil – o, zamanın və məkanın bir nöqtəsində ritmik, estetik və ruhani bir çevrilmənin təcəssümüdür. Bu çevrilməni formaya köçürən əsas rəmzlərdən biri isə dairədir. Dairə burada həm harmoniyanın, həm əbədiyyətin, həm də varlığın dövranını ifadə edir. Müasir ritual tədqiqatları göstərir ki, dairəvi formalar evlilik mərasimlərində universal simvolik funksiyalar daşıyır [Britannica, 2025].

### *2.1.Dairəvi rəqs və musiqi*

Dairəvi rəqs, qədimdən bəri toy mərasimlərinin ayrılmaz hissəsi olmuşdur. Halay, horon, sema, yallı kimi rəqslər dünyanın müxtəlif regionlarında – Anadolu, Qafqaz, Orta Asiya, Balkanlar, Yaxın Şərq və hətta yerli Amerika və Afrika xalqları arasında – dairə formasında icra olunur. Bu fenomenin universal təbiəti Claude Lévi-Strauss-ın strukturalist antropologiya nəzəriyyəsi çərçivəsində izah oluna bilər [Lévi-Strauss, 1963]. Ona görə, insan şüuru universal strukturlara malikdir və bu strukturlar müxtəlif mədəniyyətlərdə oxşar simvolik ifadələr yaradır.

Etnomuzikologiya tədqiqatları göstərir ki, dairəvi rəqslər təkcə estetik hərəkət deyil, həm də kollektiv ruhun bir dairədə birləşməsi, fərdin "öz"ündən çıxıb bütöv cəmiyyətə qarışması prosesidir. John Blackingin musiqi antropologiyası nəzəriyyəsinə görə, musiqi və rəqs sosial münasibətlərin səsləndirilmiş formasıdır [Blacking, 1973]. Dairəvi rəqslərdə bu prinsip xüsusilə aydın görünür – hər iştirakçı həm fərdi, həm də kollektiv ritmin daşıyıcısı olur.

Rəqslərin strukturunda təkrarlanan ritmik fırlanma və hərəkət ritmləri zamanın dövriliyini simvolizə edir. Halqa şəklində fırlanmaq – kainatın özündə olan spiral və sirkulyar hərəkətlərin insani əksidir. Mircea Eliadenin müqəddəs zaman nəzəriyyəsinə görə, rituallar profan zamanı müqəddəs zamana çevirir və iştirakçıları kosmik nizamla əlaqələndirir [Eliade, 1959]. Semada sufilər fırlanaraq qəlblə kainat arasında axan nurun tərənnümünü yaşayarlar; yallı və halayda isə cəmiyyət öz birliyini, gücünü və yaşamaq ehtirasını bədən dili ilə təsdiqləyir.

Müasir neyroantropologiya tədqiqatları göstərir ki, sinxron hərəkət və musiqi beynin oksitosin və endorfin kimi "sosial bağlanma" hormonlarının ifrazını artırır [Dunbar, 2012]. Bu, dairəvi rəqslərin niyə bütün mədəniyyətlərdə sosial birliyin gücləndirilməsi üçün istifadə edildiyini elmi cəhətdən izah edir.

| **Mədəniyyət** | **Rəqs adı** | **Xüsusiyyətlər** | **Simvolik məna** |
|---|---|---|---|
| Türk | Halay | Əl-ələ tutaraq dairəvi hərəkət | Birlik, həmrəylik |
| Azərbaycan | Yallı | Əl-ələ tutaraq dairəvi hərəkət | Birlik və təntənə |
| Yunan | Kalamatiano | Spiral və dairəvi formalar | Həyat dövrü |
| Yəhudi | Hora | Sürətli dairəvi fırlanma | Sevinc, təntənə |

| | | | |
|---|---|---|---|
| İrland | Ceili | Dairəvi və xətti kombinasiyalar | İcma birliyi |
| Bulqar | Horo | Yavaş və sürətli dairəvi hərəkətlər | Mövsümi dövrlər |

**Cədvəl 1**. *Müxtəlif mədəniyyətlərdə dairəvi toy rəqsləri*

Dairəvi rəqslər həm də ritual təmizlik, kollektiv enerjinin yenilənməsi, ailənin və cəmiyyətin ruhi birliyinin mühürlənməsi kimi dəyərlərlə əlaqələndirilir. Rəqsin haləvi quruluşu toyun özündə olan harmonik niyyətlə uyğunlaşır: sevgi, bağlanma, çevrə. Roy Rappaport-un ritual ekoloji nəzəriyyəsinə görə, rituallar sosial sistemin homeostazını təmin edən mexanizmlərdir [Rappaport, 1999]. Dairəvi rəqslər bu kontekstdə sosial tarazlığın bərpası və möhkəmləndirilməsi funksiyası daşıyır.

***2.2.Dairəvi süfrə və qida ritualları***

Toy süfrəsi — mədəniyyətin formaya çevrilmiş dilidir. Claude Lévi-Straussın "çiy və bişmiş" nəzəriyyəsinə görə, qida hazırlama və paylaşma prosesi təbiətdən mədəniyyətə keçidin əsas mexanizmlarından biridir [Lévi-Strauss, 1964]. Ənənəvi toy mərasimlərində xonçalar, sinilər və läyənlər əsasən dairəvi və ya oval formada düzülür. Bu formaların mərkəzdə yerləşməsi və radial simmetriya ilə təşkil olunması, həm bolluğun və rifahın, həm də kosmik harmoniyanın vizual ifadəsidir.

Mary Douglasın "təmizlik və çirkinlik" nəzəriyyəsi bu kontekstdə xüsusi əhəmiyyət kəsb edir [Douglas, 1966]. Ona görə, qida ritualları sosial sərhədlərin müəyyənləşdirilməsi və sosial nizamın möhkəmləndirilməsi funksiyası daşıyır. Toy süfrəsinin dairəvi təşkili bu prinsipləri vizual formada ifadə edir – mərkəz müqəddəs, kənar isə profandır.

Xonçaların içindəki yeməklər – qoğal, fətir, şirin çörəklər, dairəvi tortlar, hətta bəzən çilovun özü – formaca dairəvidir. Bu yeməklər yalnız qida deyil, həm də ritual simvollardır. Qoğalın özəlliklə "baş"a bənzədilməsi, onun həm canlılıq, həm bəxt, həm də ailə birliyi rəmzi kimi qəbul olunmasına səbəb olmuşdur.

Sidney Mintzin şəkər antropologiyası tədqiqatları göstərir ki, şirin yeməklər sosial münasibətlərin ifadəsi və möhkəmləndirilməsi üçün istifadə olunur [Mintz, 1985]. Toy mərasimlərində dairəvi şirniyyatlar bu funksiyanı həm forma, həm də dad baxımından yerinə yetirir.

Toy süfrəsində istifadə edilən qablar (mətbəx ləvazimatları, şirniyyat qabları, su qabları) da dairəvi olur. Bu formanın ritmik təkrarı, süfrənin ətrafında oturanların birliyi ilə bütöv bir "forma dili" yaradır – bu dil həm səssiz, həm də dərin mənalıdır. Pierre Bourdieunun habitus nəzəriyyəsinə görə, bu cür simvolik praktikalar sosial kapitalın yaradılması və ötürülməsində mühüm rol oynayır [Bourdieu, 1977].

***2.3.Cehiz və simvolik formalar***

Cehiz – qadının ailəyə gətirdiyi maddi və mənəvi mirasdır. Bu miras təkcə bəzək əşyası və tekstil deyil, həm də forma və məna yüklü simvollar toplusudur. Daniel Millerin maddi mədəniyyət nəzəriyyəsinə görə, əşyalar sosial münasibətlərin maddiləşdirilmiş formasıdır və kimlik yaratmada mühüm rol oynayır [Miller, 1987].

Igor Kopytoff-un əşyaların sosial həyatı nəzəriyyəsi bu kontekstdə əhəmiyyətlidir – cehiz əşyaları öz "həyat dövrü" boyunca müxtəlif mənaları əks etdirir [Kopytoff, 1986].

Ən vacib cehiz elementlərindən biri güzgüdür. Güzgü bəzən dairəvi, bəzən oval olur və insanın özünə baxışı, daxili həqiqəti görməsi, gələcək həyatına işıq salması mənasında rəmzləşdirilir. Jacques Lacanın güzgü mərhələsi nəzəriyyəsi bu simvolizmi psixoanalitik kontekstdə izah edir – güzgü özlüyün formalaşmasında mühüm rol oynayır [Lacan, 1977].

Gəlinin cehizində olan güzgü yalnız funksional əşya deyil, həm də onun yeni kimliyinin doğuluşuna şahidlik edən simvolik obyektə çevrilir. Arjun Appadurainin əşyaların sosial həyatı nəzəriyyəsinə görə, əşyalar öz mədəni kontekstində xüsusi mənaları əks etdirir [Appadurai, 1986].

Xonçaların içində olan güzgü+şam komplekti, bir çox türk (azərbaycanlı) və fars toylarında rast gəlinir. Güzgü – əks, şam isə nur. Bu ikili dairəvi forma qaranlıq və işığın, maddi və mənəvinin sintezi, sevgi və kamilliyin zərif təcəssümüdür. Gaston Bachelard-ın işıq poetikası nəzəriyyəsi bu simvolizmin fenomenoloji əsaslarını açıqlayır [Bachelard, 1964].

Maddi mədəniyyətdə kürəvi və dairəvi motivlər tez-tez bəzək sənəti və ornamentik strukturlar vasitəsilə ifadə olunur:

- Qızıl və mis muncuqlar, bəzək muncuqları – kürəvi formalarda düzülür.
- Keramika və metal işləmələrdə yumru, halə, günəş, gül forması.
- Zərgərlik məmulatlarında topaz, sədəf, inci – sferik formaya malikdir və təmizlik, bütövlük, ruhani enerji simvolu kimi çıxış edir.

Bu bəzəklərin estetik dəyəri ilə yanaşı, onların simvolik yükləri çox vaxt gözəgörünməz, amma kollektiv şüurun dərin qatlarına hopmuş kodlardır.

***2.4.Azərbaycan toy ənənələrində dairəvi simvolika***

Azərbaycan toy ənənələri dairəvi simvolizmin zəngin nümunələrini təqdim edir [Guliyeva, 2023]. Xüsusilə gəlinin evə girişi və kəmər bağlama adəti bu kontekstdə diqqətə layiqdir. Türk dünyasının bir çox bölgələrində gəlin evə daxil olarkən ayağı ilə bir boşqab sındırır. Bu adət – keçmişin "dairəsini" sındırıb yeni bir dairəyə – evlilik dövranına daxil olmağın simvolik ifadəsidir.

Lakin Azərbaycan ənənələrində daha maraqlı bir ritual mövcuddur – gəlinin belinə qırmızı lent və ya gümüş kəmər bağlanması [Guliyeva, 2023]. Bu ritual bəyin qardaşı və ya atası tərəfindən həyata keçirilir və gəlinin yeni ailə dairəsinə daxil olmasını simvolizə edir. Qırmızı rəng burada həm həyat gücünü, həm də məhəbbəti ifadə edir. Victor Turnerin rəng simvolizmi nəzəriyyəsinə görə, qırmızı rəng bir çox mədəniyyətdə həyat, qan və doğuluş ilə əlaqələndirilir [Turner, 1967].

Gümüş kəmər ənənəsi isə daha dərin simvolik mənaları ehtiva edir. Gümüş müxtəlif mədəniyyətlərdə təmizlik, qorunma və ruhani enerji simvolu kimi qəbul edilir [Metals Edge, n.d.]. Azərbaycan ənənələrində də oxşar praktika mövcuddur – bəyin ailəsi gəlinin əlini istəmək üçün gümüş kəmər təqdim edir və gəlin toy günü bu kəməri geyinir [Guliyeva, 2023].

| Mədəniyyət | Ritual | Dövrə sayı | Simvolik məna |
|---|---|---|---|
| Yəhudi | Gəlinin bəyi dövrə vurması | 7 | Yeddi yaradılış günü, xeyir-dua |
| Hind | Saptapadi (od ətrafında) | 7 | Yeddi and, həyat mərhələləri |
| Gürcü | Qazanın ətrafında dövrə | 3 | Üçlük, müqəddəs rəqəm |
| Azərbaycan | Kəmər bağlama | 3 | Üç dəfə bağlama, möhkəmlik |
| Türk | Qırmızı kəmər | 1 | Bakirəlik, təmizlik |

**Cədvəl 2.** *Mədəniyyətlərarası dairəvi toy ritualları*

Boşqabın sındırılması həm də şərdən qorunma, bədnəzərdən uzaq durma məqsədi daşıyır. Bu adət Balkan türklərində, Anadolu bölgəsində, eləcə də Azərbaycan kəndlərində fərqli formalarda yaşamaqdadır. Bəzən boşqabın içinə duz, qənd, ya da pul qoyulur – beləliklə, qırılan forma içində xeyir-dua və bolluq simvollaşdırılır.

James Frazer-in "qızıl budaq" nəzəriyyəsinə görə, bu cür simpatik sehrli praktikalar bütün mədəniyyətlərdə mövcuddur və oxşar psixoloji mexanizmlərə əsaslanır [Frazer, 1890]. Boşqab sındırma ritualı bu kontekstdə keçmişin "qırılması" və yeni həyatın "başlanması" kimi simvolik akt kimi dərk edilə bilər.

***2.5.Elçilik və xınayaxdı mərasimləri***

Toy mərasimindən öncəki mərhələlərdə – elçilik və xınayaxdı mərasimlərində də dairəvi formalar diqqətçəkicidir. Van Gennepin nəzəriyyəsinə görə, bu mərhələlər "ayrılma" fazasının bir hissəsidir və gəlinin köhnə sosial statusundan yeni statusuna keçidini hazırlayır [van Gennep, 1961].

Elçilik zamanı aparılan çay dəstləri, dairəvi xonçalar, şirniyyat qabları həm ailələrarası münasibətin zərifliyini, həm də birgə çevrə qurmağın rəmzi təzahürünü yaradır. Marcel Maussun hədiyyə nəzəriyyəsinə görə, hədiyyə mübadiləsi sosial münasibətlərin yaradılması və möhkəmləndirilməsinin əsas mexanizmlarından biridir [Mauss, 1990]. Elçilik mərasimindəki dairəvi qablar bu mübadiləni simvolik formada ifadə edir.

Elçilik zamanı “hə” alındığında Azərbaycanda armudu stəkanda şirinçay verilməsi uzaq keçmişi olan bir ənənədir. Burda da elementlərin kürəviliyi və dairəviliyi gözdən qaçmır.

Azərbaycan və Anadolu mədəniyyətində geniş yayılmış armudu stəkan, forma və funksiyanın ən gözəl sintez nümunələrindən biridir. Stəkanın yuxarı hissəsinin açıq və alt hissəsinin dar olması bir neçə funksiyanı eyni anda yerinə yetirir:

- Çayın istiliyini uzun müddət saxlayır – bu, istilik konveksiyası və hava təbəqəsinin roluna bağlıdır.
- Əl ilə tutmaq asandır – forması ovuca oturur, ergonomik uyum maksimumdur.
- Estetik simvol kimi də işləyir – qadın belini, bədii incəliyi və ritmik proporsiyanı təmsil edir.

Bu forma həmçinin qavrama psixologiyası baxımından da rahatlıq yaradır: insan əli təbii olaraq bu formaya uyğunlaşır və bu da istifadədə intuitiv davranış doğurur.




**Şəkil 1.** *Armudu stəkanda çay və çay dəstgahı*

Azərbaycan çay dəstgahının elementləri — çaynik, samovar, armudu stəkan, dairəvi mürəbbə qabları və qoğallar — dairə və kürə formalarının həm funksional, həm də simvolik təcəssümüdür. Bu dəstgah, gündəlik rituallarda forma estetikasının və mədəni kimliyin necə vəhdət təşkil etdiyini göstərən canlı nümunədir.

Xınayaxdı mərasimində xına adətən dairəvi mis və ya saxsı qabda gətirilir [AzerTag, 2022]. Qızın əllərinin ortasına çəkilən dairəvi naxış, özəlliklə də "günəş" və ya "halə" formasında təsvir olunur. Bu naxış həm müdafiəvi, həm də sehrli gücə malik sayılır. Hind,

Pakistan, Qafqaz, Orta Asiya və Anadolu mədəniyyətlərində bu dairəvi xına formaları ailə rifahının, doğumun və məhsuldarlığın simvoludur.

Alfred Gellin sənət antropologiyası nəzəriyyəsinə görə, dekorativ naxışlar təkcə estetik deyil, həm də sosial təsir mexanizmləridir [Gell, 1998]. Xına naxışları bu kontekstdə gəlinin yeni sosial roluna hazırlanmasının vizual ifadəsi kimi çıxış edir.

Xınayaxdı gecəsində halay rəqsi yenidən dairəvi strukturda canlanır – bu zaman qadınlar bəzən halqa şəklində oturur, bəzən fırlanaraq xına yandırılan əllərlə zərif bir ritm yaradırlar. Bu dairəvi hərəkətlər həm də qadın enerjisinin bir mərkəzdə birləşməsi və qızın "ailə orbitinə" daxil olmasının təntənəli ifadəsidir.

Judith Butlerin performativlik nəzəriyyəsi bu ritualların gender kimliyi formalaşdırmadakı rolunu açıqlayır [Butler, 1990]. Xınayaxdı mərasimi gəlinin qadın kimliyi və sosial rolunun performativ təsdiqi kimi çıxış edir.

***2.6.Dünya xalqlarının toy ənənələrində dairəvilik və kürəvilik***

1. *Avropa.* Avropa toy ənənələrində üzük — əbədi sevginin və bağlılığın simvolu — dairəvi formanın əsas nümunəsidir. Qızıl və ya gümüşdən düzəldilmiş nişan və nikah üzükləri, başlanğıcı və sonu olmayan bir dairə kimi sonsuz sevgi ideyasını ifadə edir.
2. Orta əsrlərdən gələn rəqs halqaları — məsələn, slavyan xalqlarının "khorovod" rəqsləri — toya qatılanların əl-ələ verib dairə şəklində oynaması birlik, cəmiyyətin dəstəyi və harmoniya anlayışını təcəssüm etdirir.
3. *Amerika (Şimali və Cənubi).* Yerli Amerika tayfalarında toy mərasimləri təbiətə uyğun şəkildə keçirilir. Tipilər (konik/kürəvi çadırlar) evlənən cütlüyə yeni həyat üçün qoruyucu kürəvi məkan təklif edir. Maya və İnka kimi qədim mədəniyyətlərdə dairəvi məbədlərdə edilən nigah andı kosmosla uyğunlaşma kimi qəbul edilirdi. Müasir ABŞ və Kanadada isə toy tortu — çox vaxt kürəvi bəzəklərlə işlənmiş və mərtəbəli – toydakı bolluq və uğurun simvolu sayılır.
4. *Asiya.* Çin toylarında qırmızı dairəvi lampionlar, kürəvi düyü topları (Tangyuan) və çay mərasimindəki fincanlar toya dairəvi motivlər gətirir. Burada dairə — ailə birliyi, xoşbəxtlik və uğurun simvoludur. Hindistanda "pheras" adlanan ritualda cütlük sacred fire (müqəddəs od) ətrafında 7 dairə dövrə vuraraq and içir. Bu hərəkət karmik tamamlanma və ruhi birlik rəmzi kimi qəbul olunur. Yapon toylarında isə çay mərasimi, dairəvi fincanlar, və harmoniyaya əsaslanan dairəvi oturma formaları diqqət çəkir.
5. *Afrika.* Afrika qitəsində müxtəlif qəbilə və etnik qruplarda halqavari toplaşmalar, dairəvi rəqslər və kürəvi baş geyimləri geniş yayılıb. Məsələn, Zulu toylarında ailələr dairəvi qamış evlərdə toplaşır və bu formalar ailənin birliyi və təbiətlə uyğun yaşayış prinsipini təcəssüm etdirir. Toy məclislərində ifa olunan haləvi rəqslər həm də kamil dövran və mədəni təkamül simvoludur.
6. *Avstraliya (Aborigenlər).* Aborigen Avstraliya mədəniyyətində toy ritualları və digər ayinlərdə torpaqda dairəvi rəsmlər (sand circles, dot paintings) çəkilər və bu formalar ruhların dövranını, əcdadların enerjisini çağırmaq məqsədi daşıyır. Bəzən toyla bağlı mahnılar və rəqslər də haləvi icra olunur, bu da qəbilə birliyini və mədəni sabitliyi əks etdirir.

Beş qitədəki fərqli xalqlarda toy mərasimlərində dairə və kürə forması həm sehrli-mistik simvol, həm də funksional forma kimi çıxış edir. Dairə — əlaqə, davamlılıq və əks olunma; kürə isə tamlıq, bütövlük və enerji mərkəzi kimi dəyərləndirilir. Bu formalar vasitəsilə insan həyatının ən mühüm keçid mərhələsi olan evlilik mədəni yaddaşda və ritual davranışda simvolik şəkildə qeyd olunur.

## 3.Yas mərasimlərində dairəvi–kürəvi elementlər: ölüm və transformasıya antropologiyası

Ölüm — həyatın ən sükutlu, lakin ən çox danışılan həqiqətidir. Bütün mədəniyyətlər ölümlə üzləşərkən, ona yalnız göz yaşları ilə deyil, forma ilə də cavab verir. Hər bir yas mərasimi — bir ruhani memarlıq aktıdır: burada sözlərin azaldığı yerdə əşyalar, hərəkətlər və formalar danışmağa başlayır. Bu danışıqda dairə — bitməyənin, kürə isə ruhun mükəmməl halının rəmzi olaraq ön plana çıxır.

Robert Hertzin ikili dəfn nəzəriyyəsi yas rituallarının sosial funksiyasını açıqlayır [Hertz, 1960]. Ona görə, ölüm iki mərhələli prosesdir: fiziki ölüm və sosial ölüm. Yas ritualları bu iki mərhələ arasındakı keçidi idarə edir və həm ölənin ruhunun transformasiyasını, həm də canlıların sosial nizamının bərpasını təmin edir. Maurice Blochun "yenidən doğuluş və ölüm" nəzəriyyəsi bu prosesi daha da dərinləşdirir – ona görə, yas ritualları ölümü həyata çevirən transformativ mexanizmlərdir [Bloch, 1992].

### *3.1.Cənazə ritualında dairəvi davranışlar: Məkan və hərəkətin semiotikası*

Bir çox mədəniyyətlərdə cənazə mərasimi zamanı insanların cəsədin ətrafında dairəvi düzülməsi, məzar başında dövrə vurması, müxtəlif dairəvi ayinlərin icrası müşahidə olunur. Bu hərəkətlərin mənbəyi qədim ayinlərə gedib çıxır və Arnold van Gennepin keçid ritualları nəzəriyyəsi çərçivəsində izah oluna bilər [van Gennep, 1961].

